# ABONEMENTDƏ VƏ QİRAƏT ZALINDA OXUCULARA KİTABXANA XİDMƏTİNİN TƏŞKİLİ MƏSƏLƏLƏRİ

**A.Ə.CƏFƏROV**
***Baş müəlllim***
***Bakı Dövlət Universiteti***
***m.mehmanəli@.mail.ru***

*Məqalədə müasir dövrdə oxuculara abonementdə və qiraət zalında kitabxana xidmətinin vəziyyəti konkret fakt və rəqəmlər əsasında təhlil edilmiş, işi yaxşılaşdırmaq üçün bir sıra tövsiyələr verilmişdir. Bu zaman Tərtər rayon zona təcrübə stansiyası kitabxanasının iş təcrübəsinə isnad edilmişdir.*

***Açar sözlər:*** *abonement, oxu zalı, oxucu, kənd təsərrüfatı.*

Azərbaycan Respublikasında həyata küçirilən aqrar islahatlara uygun olaraq aqrar sahədə aparılan elmi tədqiqat işçilərinin istehsalatda tətbiq edilməsinin səmərəliliyini artırmaq məqsədi ilə Kənd Təsərrüfatı Nazirliyinin təşəbbüsü ilə 9 müxtəlif regional elmi mərkəzlər yaradıldı. Bunlara Quba, Salyan, Beyləqan, Kürdəmir, Tərtər, Lənkəran, Gəncə, Şəki və Naxçıvan REM-lər aiddir [1.1]

Həyata keçirilən tədbirlər bir çox sahələrdə oldugu kimi bitkiçilik və heyvandarlıq məhsullarının istehsalının strukturunda da müəyyən dəyişikliklərə səbəb olmuşdur. Bütün bunları nəzərə alaraq Kənd Təssərrüfatı Nazirliyinin Aqrar Elmi Mərkəzi sistemində yerinə yetirilən elmi-tədqiqat mövzularının əksəriyyəti praktik əhəmiyyət daşıyaraq yeni sortların və becərilmə texnologiyalarının təkmilləşdirilməsinə, bitkiçilikdə və heyvandarlıqda səmərəli mühafizə üsullarının işlənməsi məsələlərinin öyrənilməsinə həsr edilmişdir [2.5].

Kənd təssərrüfatında həyata keçirilən iqtasadi islahatların hüquqi əsasını isə Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi normativ hüquqi sənədlər təşkil edir. İqtisadi islahatların həyata keçirilməsində və mütəxəssislərin elmi biliklərinin artırılmasında kitabxanalar böyük rol oynayır. Xalqın mənəvi zakası, tarixi yaddaşı, bəşəri biliklərin ”qızıl fondu” sayılan kitabxanalar müasir elmi tərəqqinin aparıcı qüvvələrindən biri kimi elmi informasiya və mədəni tərbiyə işinə səmərəli təsir göstərən bir sosial istitut səviyyəsində hazırki şəraitdə daha ardıcıl fəaliyyət göstərilməlidir [3, №3].

Hazırkı dövrdə ktab, kitabxana və cəmiyyət problemi bilavasitə xalqın tərəqqisinin əsas amillərindən biri oldugundan, əhalinin çap əsərlərindən ictimai istifadəsinin mühüm vasitəsi kimi meydana çıxır. Hər bir kitabxana qarşı-

sında duran məqsəd və vəzifələrin ugurla həyata keçirmək üçün elm və bilik sahələri üzrə məlumat mənbəsi hesab edilən kitabları, dövrü nəşrləri, ümumiyyətlə çap məhsulunun bütün növlərini öz fondunda toplamalı və həmin materialların-nəşrlərin, o cümlədən çap olnmamış materiaalların hər vasitə ilə təbliğinə çalışmalıdır. Təbii ki, bu zaman kitabxanaların xidmət profili qarşısında duran məqsəd və vəzifələr əsas amil hesab olunur. Son məlumata görə ölkəmizdə 10 mindən artıq kitabxana vardır ki, bunların da 4 mindən artıgı universal kütləvi kitabxanalardır. Bu kitabxanaların fondunda 50 milyon nüsxəyə qədər kitab toplanmışdır və ondan 2 milyondan artıq oxucu istifadə edir [1].

Alim və mütəxəssislərə kitabxana xidmətinin təşkili sahəsində kənd təsərrüfatı kitabxanalarının özünəməxsus yeri və rolu vardır. Müasir mərhələdə kənd təsərrüfatı kitabxanalarının baçlıca vəzifəsi dövlətin aqrar siyasətinin həyata keçirilməsində kənd təsərrüfatı mütəxəssilərinə və qulluqçularına, elmi işçilərə, fermer təsərrüfatlarına, aqrar-sənaye birliklərində fəaliyyət göstərən bütün oxuculara səmərəli kitabxana-biblioqrafiya və informasiya xidmətinin təşkil etməkdən ibarətdir. Respublikanın ixtisaslaşdırılmış kənd təsərrüfatı kitabxanaları sistemində 728622 nüsxəyə yaxın olan 27 kitabxana fəaliyyət göstərir. Kənd təsərrüfatı kitabxanaları şəbəkəsinə respublika əhəmiyyətli mərkəzi elmi kitabxana, kənd təsərrüfatının ayrı-ayrı sahələri üzrə elmi tədqiqat institutlarının kitabxanaları, təcrübə stansiyalarının kitabxanaları daxildir. Təhsil müəssisələrinin kitabxanaları isə bu şəbəkədən çıxarılmış və Təhsil Nazirliyə tabe edilmişdir [4].

İqtisadiyyatı bazar münasibətləri əsasında qurmaq və kənd təsərrüfatı böhranını aradan qaldırmaq üçün ölkədə kənd təsərrüfatı sahəsi üzrə elmi işçilərinin, aspirantların, mütəxəssislərinin ixtisas səviyyəsini daha da artırmaq, onların sorgularını tam hərtərəfli ödəmək lazımdır. Müasir şəraitdə kənd təsərrüfatı elminin son nailiyyətlərinin, eləcə də qabaqcıl təcrübənin məqsədəuygun şəkildə geniş təbliginə bu kitabxanadan Tərtər Zona Təcrübə Stansiyasının xüsusi rolu vardır. Bu kitabxana 1976-ildən fəaliyət göstərir [1].

ZTS-in qarşısında duran elmi-tədqiqat və təcrübi vəzifələrin yerinə yetirilməsində onun kitabxanasının da çox büyük əhəmiyyəti vardır. Məlum olduğu kimi təcrübə stansiyasının kitabxanaları qapalı tipli dar profilli kitabxanalardır. O, əsas etibarilə ancaq ZTS-in işçilərinə xidmət edir və öz işini onun həyata küçirdiyi vəzifələrə müvafik olaraq qurur [8]. Kitabxana elmi işçilərə və mütəxəssislərə xidmət işini abonement, qiraət zalı və qismən də KAA vasitəsiə həyata keçirir. Kitabxana öz fondunun qismən kitabxana kollektorundan və kitab mağazasından aldıgı qiymətli baglamalar hesabına genişləndirmişdir. 2007-ci ildə kitabxananın fondunda 9.592 nüsxə ədəbiyyat olmuşdur. Mübadilə fondunda 675 nüsxə, müasir fondda 675 nüsxə ədəbiyyat olmuşdur. Həmin il kitabxananın 70 nəfər daimi oxucusu olmuş, kitabxanaya gəliş 3.250 olmuş-

dur. Onlara verilmiş sənədlərin sayı isə 9235 olmuşdur ki, bunlardan da 975 nüsxəsi ictimai-siyasi ədəbiyyat, 3477 nüsxəsi kənd təsərrüfatı ədəbiyyatı, 912 nüsxəsi isə bədii ədəbiyyat və s.-dir [1].

Bu göstərici qapalı tipli, dar profilli kitabxana üçün o qədər də pis deyil.

İndi isə kitabxanada abonement və qiraət zalı vasitəsilə mütəxəssislərə və elmi işçilərə, ümumiyyətlə, oxuculara xidmət işinin təşkili xüsusiyyətlərinin fakt və rəqəmlərlə izah etməyə, burada olan nöqsan və çatışmamazlıqları aşkara çıxarmaga çalışaq. Məlum oldugu kimi, istənilən tip və növdən olan kitabxanaların abonement və qiraət zallarının işində spesifik xüsusiyyətlərlə bərabər, bütün kitabxanalar üçün ümumi olan xüsusiyyətlər də xasdır. Başqa bir tərəfdən isə bütün kitabxanaların abonement və qiraət zallarında oxuculara, eləcə də mütəxəssis oxuculara xidmət işinin tabe oldugu ümumi nəzəri əsaslar mövcuddur. Bütün bunlara görə də Tərtər ZTS kitabxanasında abonement və qiraət zalında oxuculara xidmət işini izah edib ümumiləşdirməzdən əvvəl bu ümumi xüsusiyyətlər və nəzəri əsaslar haqqında məlumat vermək, sonrakı izahat zamanı isə məhz bu məlumatlara isnad etmək məqsədəuygun olar.

Abonement fondda olan çap əsərlərinin və digər materialların kitabxanadan kənarda istifadəsini müəyyən şərtlərlə (qaytarma müddəti, mühafizə təminatı və s.) təşkil edib həyata keçirən kitabxana şöbəsidir. Abonement həm kütləvi, həm də elmi kitabxanada təşkil edilir. ”Abonement” sözünün mənası müəyyən müddət ərzində nədənsə istifadə etmək, xidmət hüququ deməkdir [7].

Kitabxanadan elə kitab almaq hüququ ayrı-ayrı vətəndaşlara (fərdi abonement), bəzi xüsusi kitabxanalarda isə mütəxəssislərə və digər təşkilatların işçi kollektivlərinə (kollektiv abonement) verilir. Elmi kitabxanalarda kütləvi kitabxanadan fərqli olaraq evə daha şox kitab verilir ki, bu da elmi işçilərin və mütəxəssislərin əməyinin xarakteri ilə müəyyən edilir. Elmi kitabxanaların oxu zallarında əsas fonddan evə kitab verilişi məntəqələri də yaradılır. Əksər hallarda abonement kitabxananın müstəqil şöbəsi kimi təşkil edilir. Böyük elmi kitabxanalarda ixtisaslaşdırılmış abonementlərin müxtəlif növləri olur.

Tərtər ZTS kitabxanasında abonement şöbəsi çox sadə quruluşa malikdir. Bu isə kitabxananın xarakteri, daha dogrusu, onun qaralı tirli dar profilli kitabxana olması ilə xarakterizə edilir. 2007-ci ildə kitabxananın 70 nəfər oxucusu olmuşdur ki, onların da əksəriyyəti abonement şöbəsindən fəal şəkildə istifadə etmişlər. Onlara 9235 nüsxə ədəbiyyat verilmişdir ki, bunun da 975 nüsxəsi ictimai-siyasi ədəbiyyat, 3477 nüsxəsi isə kənd təsərrüfatı ədəbiyyatıdır. Bunlardan 6600-ü kitab və broşüra, 2635-i isə dövri və ardı davam edən nəşr olmuşdur. Ümumi kitab fondu isə 9592 nüsxə olmuşdur. Bu ildə müraciət edən oxuculara 16 adda ədəbiyyat üçün “rədd cavabı” verilmişdir. 2007-2008-ci illərdə kitabxananın abonement şöbəsi vasitəsilə kitab verilişi ümumi kitab verilişinin nisbətən az hissəsini təşkil etmişdir [1].

Tədqiq olunan dövrdə kitabxananın daimi oxucularının gah artıb, gah da azalması ilə əlaqədar olaraq abonementin istifadə edən oxucuların sayı da müxtəlif olmuşdur. Lakin buna baxmayaraq oxuculara xidmət işində aparıcı yeni yenə də oxu zalı tutmuşdur. Kitabxananın əksəriyyəti ancaq ZTS-in öz əməkdaşları olmuşdur. Kitabxananın 2007-2008-ci illərdəki işi ilə daha yaxından tanış olmaq üçün aşagıdakı cədvələ müraciət edək.

| *İllər* | *Oxucu ların sayı* | *Fərdi abonem ent* | *Oxu zalı* | *K/t mütəx* | *Elmi işçilər* | *Başqa oxucu lar* | *Gələn lərin sayı* |
|---|---|---|---|---|---|---|---|
| 2007 | 70 | 50 | 20 | 14 | 51 | 6 | 6220 |
| 2008 | 72 | 55 | 20 | 19 | 48 | 9 | 6712 |

**Nəşrlər üzrə sənədlərin verilişi**

| *İllər* | *V.ə.m.* | *İ.s.ə.* | *K.t.ə.* | *B.ə.v.d.e.s.* | *K.v.K/x.* | *D/n* |
|---|---|---|---|---|---|---|
| 2007 | 9235 | 975 | 3477 | 4783 | 6600 | 2635 |
| 2008 | 9250 | 950 | 3510 | 4790 | 6610 | 2640 |

Cədvəllərdən göründüyü kimi, müxtəlif illərdə kitabxananın abonement və oxu zalının göstəriciləri müxtəlif cür olmuşdur, il ərzində verilən ədəbiyyatın miqdarı gah artmış, gah da azalmışdır. Lakin abonement şöbəsində çox zaman oxuculara "rədd" cavabının verilməsi kitabxananın fondunun oxucu sorgularının xarakterinə müvafiq olaraq istənilən şəkildə komplektləşdirilmədiyi baxımından narahatlıq dogurmaya bilməz. Ümumiyyətlə, bir çox çatışmazlıq və nöqsanlar vardır. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, abonement şöbəsinin işi daha çox texniki xarakter daşıyır, daha dogrusu, şöbə öz işini yalnız kitab verilişi ilə kifayətlənmiş hesab edir. Burada oxuculara kitab seçilməsi işinə kömək, mütaliəyə rəhbərlik, oxucu sosrgularının istiqamətləndirilməsi məsələlərinə, demək olar ki, az fikir verilir. Kitabxanada oxucularla fərdi isə bir o qədər də fikir verilməmişdir. Nəhayət, abonement şöbəsinin oxu zalı ilə əlaqəsi çox zəifdir. Tərtər ZTS kitabxanasının oxu zalının işi abonement şöbəsinə nisbətən daha yaxşı təşkil edilmişdir. Oxucuların dövri nəşrlərlə, kitablarla, audiovizual materiallarla işləyə biləcəkləri xüsusi yeri olan kitabxana şöbəsi oxu zalı adlanır [1].

Oxucuların təhsil və peşə sorgularının mürəkkəbləşməsi ilə əlaqədar olaraq hazırda əhaliyə kitabxana-biblioqrafiya xidmətinin təşkilində oxu zallarında əhəmiyyəti nəzərə çarpacaq dərəcədə artır. Lakin bir çox kütləvi, habelə

elmi kitabxanaların oxu zallarının vəziyyəti oxucuların artmaqda olan tələblərinə cavab vermir. Oxu zalının işinin təşkilində onun yardımçı fondu mühüm rol oynayyır. Ümumiyyətlə, bu fond kitabxana üzrə kitab verilişinin təşkilində mühüm yer tutur. Oxu zalının yardımçı fondu oxucu sorğularının operativ şəkildə ödənilməsinə xidmət etdiyinə görə, burada əsas etibarilə son illərdə dərc edilmiş nəşrlər öz əksini tapmışdır. Lakin nəzərə almaq lazımdır ki, müxtəlif tipli ədəbiyyat üçün "köhnəlmə" mexanizmi müxtəlifdir. Məsələn, elmi əsərləri oxucular daha uzun müddət ərzində soruşur. Bu halda yardımçı fondda müxtəlif tipli kitabların saxlanma müddəti də müxtəlif olmalıdır. Oxu zalında kitab verilişinin texnikası və uçotu abonementdən bir qədər sadədir.

Tərtər ZTS kitabxanasının oxu zalı başlıca kitab verilişi məntəqəsidir. 20 nəfərlik bu oxu zalının yardımçı fondundan istifadə açıq rəf üsuluna əsaslanır. Burada soraq-biblioqrafiya nəşrləri, müxtəlif növ ensklopediyalar, lügətlər, qəzet və jurnallar oxucuların açıq istifadəsinə verilir. Stansiyanın işçiləri oxu zalından tez-tez istifadə edirlər. Oxu zalının işini tam şəkildə aydınlaşdırmaq və izah etmək məhz bu səbəbə görə mümkün olmamışdır. Daha dəqiq desək, oxucuların yardımçı fondun bir hissəsindən sərbəst şəkildə istifadə etmələrinin uçotunun aparılmaması oxu zalının işi haqqında tam təsəvvür əldə etməyə imkan vermir. Lakin kitabxananın, xüsusilə də oxu zalının gündəlik iş təcrübəsinin öyrənilməsi göstərir ki, ZTS-in bütün işçiləri bu və ya digər dərəcədə oxu zalının sərbəst yardımçı fonduna müraciət edirlər. Oxu zalına 2008-ci ilin bir ayı ərzində 216 gəliş olmuş, oxucular daha çox qəzet və jurnallardan, habelə soraq kitablarından istifadə etmişlər.

Ümumiyyətlə, 2008-ci ildə kitabxanaya 2335 nəfər oxucu gəlişi olmuş və onlara 9250 nüsxə ədəbiyyat verilmişdir ki, bunun da çoxu oxu zalının payına düşür. Bu rəqəmin qeyri-tamligını, daha dogrusu ozu zalının sərbəst fondundan istifadənin uçotunun aparılmadıgını da nəzərə alsaq, oxu zalının kitab verilişindəki rolu haqqında tam təsəvvür əldə edə bilərik. ZTS-nin kitabxananın oxu zalının işində də bəzi nöqsan və çatışmazlıqlar lmuşdur. Hər şeydən əvvəl, tədqiq olunan dövrdə zalın yardımçı fondunun genişləndirilməsi, onun tərkibi zalın qarşısında duran vəzifələrlə uygunlaşdırılmamışdır. Burada kənd təsərrüfatı üzrə soraq-biblioqrafiya nəşrlərinin miqdarı çox az olmuşdur.

Kitabxananın oxu zalı abonementdən fərqli olaraq fərqli xidmət işinə müəyyən dərəcədə yer vermişsə də bu işdə bəzi nöqsanlar olmuşdur. Bunlara baxmayaraq oxu zalının kitabxananın fəaliyyətində tutdugu rol çox mühüm və əhəmiyyətli olmuşdur. Buna görə də Tərtər ZTS kitabxanasının bəhs edilən dövrdəki fəaliyyətinin qənaətbəxş hesab etmək olar.

## ƏDƏBİYYAT

1. *REKTK-nın 2009-cu il hesabatı.*
2. *Elmi-tədqiqat müəssisələrinin 2008-ci ildəki fəaliyyətinin əsas yekunları.-B.,2009, s.5.*
3. *Niftullayev V. Kənd təsərrüfatının iqtisadiyyatı.-B.:Elm,1996, s.3.*
4. *Rzayev S. Kitabxana xidməti. Dərslik.- B.:"Turan evi",2009, s.142.*
5. *Сельскохозяйственные библиотеки Азербайджанской ССР (Справочник). -Б., 1976.-с.11.*
6. *Xələfov A.A. Kitabxanaşünaslığa giriş. Dərslik. - B., 2003, s.156-157.*
7. *Работа с читателями: Учебник.-М.: Книга. 1981,с.254.*

## ABOUT THE ORGANIZATION PROBLEMS OF LIBRARY SERVICE FOR READERS IN READING HALLS

**A.A.JAFAROV**

### *SUMMARY*

***Keywords:*** *subscription, reading-hall, reader, agriculture.*

*In the presented article the situation of library service in reading halls has concretely been analysed on the base of facts and some advise are put forword for improving the guality of service.*

## ОРГАНИЗАЦИЯ БИБЛИОТЕЧНОЕ ОБСЛУЖИВАНИЕ ЧИТАТЕЛЕЙ В АБОНЕМЕНТЕ И В ЧИТАЛЬНЫХ ЗАЛАХ

**А.А.ДЖАФАРОВ**

### *РЕЗЮМЕ*

***Ключевые слова:*** *абонемент, читальный зал, читатель, сельское хозяйство.*

*В статье освешено библиотечное обслуживание читателей в абономенте и читальном зале и указано некаторые рекомендация для улучшения библиотечного обслуживание читателей в современном этапе.*